

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 may 2025-ci il №34 (2943) https://mod.gov.az Qiymətı 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniyaya işgüzar səfəri

*Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya işgüzar səfərə gəlib.*

Tirana şəhərinin Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Albaniya Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Balluku və digər rəsmi şəxslər qarşılayıblar.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 16-da Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub.

Antonio Koşta və Ursula Fon der Lyayen Azərbaycanın Avropa İttifaqının vacib və etibarlı tərəfdaşı olduğunu bildirərək, ölkəmizin xüsusilə Avropanın enerjiyə ehtiyacı olan zaman göstərdiyi dəstəyi yüksək qiymətləndirdiklərini deyiblər.

Azərbaycanın Mərkəzi Asiya regionu ilə əlaqələri və Orta Dəhlizdə aparıcı rolu vurğulanıb. Bununla yanaşı, ölkəmizin regionda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin olunmasında müxtəlif tərəflər arasında dialoqun aparılması üçün platforma rolu oynadığı da məmnunluqla qeyd edilib.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini deyərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyində roluna toxunub. Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu deyib, bu gün Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 ölkəsinin enerji təminatında Azərbaycanın rolunu vurğulayıb.

Ölkəmizin Orta Dəhlizdə oynadığı vacib rola toxunan Prezident İlham Əliyev bu dəhlizin inkişafı məqsədilə Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturuna qoyulmuş investisiyaları və bu istiqamətdə aparılan işləri qeyd edib. Dövlətimizin başçısı Orta Dəhlizlə yüklərin daşınma həcminin artdığını da deyib.

(Ardı 2-ci səhifədə)

## Əsgər valideyni - adların ən alisi

Valideyn olmaq bəşər tarixində yaşamış hər bir fərd üçün sadəcə övlad sahibi olmaq deyil, yeni bir həyatın məsuliyyətini üzərinə götürmək, bu məsuliyyətin müqəddəsliyini iliyinə qədər hiss etməkdir. Belə ki, bəşəriyyətin yeganə şüurlu varlığı olan insanoğlu üçün ən yaddaqalan an onun ilk dəfə ata və ana statusu ilə taclanmasıdır. Belə olan təqdirdə də, bir övladın ilk dəfə “ata” və “ana” sözlərini dilində səsləndirməsi, dünyada kişi və qadın məfhumundan başqa heç bir titulu olmayan iki fərdin bir anda yaradılışın ən böyük ünvanlarından birinə sahib olması ilə nəticələnir.

(Ardı 8-ci səhifədə)



## “Anatolian Phoenix-2025” beynəlxalq təlimi davam edir

Qardaş Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anatolian Phoenix-2025" ("Anadolu Ankası-2025") beynəlxalq axtarış-xilasetmə təlimi davam edir.

(Ardı 3-cü səhifədə)

## “Müasir dövrün təhdidləri: hədəf - həqiqətdir!”

Ənənəvi münaqişə anlayışı artıq tarixə qovuşur. Müasir dövrün təhdidləri sırasında informasiya təhlükəsizliyi, xüsusilə də ordu və hərbi xidmət sahəsində informasiya təhlükəsizliyi mühüm əhəmiyyət kəsb edir.

Ordunun səmərəli fəaliyyəti təkcə texniki təchizat və şəxsi heyətin hazırlıq səviyyəsi ilə deyil, həm də məxfi və xidməti məlumatların qorunması, informasiya sızmasının qarşısının alınması və düşmənin dezinformasiya, psixoloji təsirlərinə qarşı dayanıqlılıqla sıx bağlıdır. Rəqəmsal texnologiyalar dövründə informasiyanın ildırım sürəti ilə yayılır və hər hansı yalan, yaxud təxribat ictimaiyyətdə panika, narazılıq, hətta inamsızlıq toxumu səpə bilər. Düşmən tərəf sosial şəbəkələr, mesajlaşma platformaları və bəzən nüfuzlu mənbələrdən istifadə edərək yalan narrativlər yayır, reallığı təhrif edir və ictimai şüura təsir etməyə çalışır.

Belə bir şəraitdə informasiya məkanının qorunması ölkənin ərazi bütövlüyünün müdafiəsi qədər vacib sayılmalıdır. Ordu yalnız cəbhədə deyil, informasiya müstəvisində də dəstəyə ehtiyac duyur. Bu mübarizədə informasiya bölmələri, hərbi analitiklər, jurnalistlər, bloqçular - yəni, yalanla peşəkar, əsaslandırılmış və operativ mübarizə aparmaq bacarığına malik hər kəs ön plandadır.

Bu gün Azərbaycan Ordusunun fəaliyyəti barədə cəmiyyətin məlumatlandırılması prosesi media ilə qarşılıqlı münasibətlər fonunda həyata keçirilir. Müdafiə Nazirliyi media vasitəsilə xalqı ordu üzərində ictimai nəzarətçi mövqeyinə gətirib - vətəndaşlar ictimailəşdirilən məlumatları diqqətlə izləyir, fəaliyyətə qiymət verir və dəstəyini əsirgəmir. Nazirliyin rəhbərliyi haqlı olaraq hesab edir ki, media üzərindən xalq-dövlət-ordu dialoqunun inkişafı sosial zərurət və müasir dövrün tələbidir.

Ordu ilə bağlı dezinformasiyaların yayılmasının qarşısını almaq, hərbi informasiya mühitini təmiz saxlamaq üçün media ilə peşəkar dialoqun qurulması, informasiyanın əlçatan və davamlı şəkildə təmin edilməsi mühüm əhəmiyyət daşıyır. Bu sahədə düzgün qurulmuş yanaşma əhəmiyyətli müsbət nəticələr verir.

(Ardı 2-ci səhifədə)



## Hərbi vəzifəlilərlə praktiki məşğələlər keçirilir

Müdafiə Nazirliyinin 2025-ci il üçün hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı başlayıb.

Müdafiə Nazirliyi xəbər verir ki, proqrama uyğun olaraq, Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrindən birində toplanışa qatılmış heyətlə praktiki məşğələlər keçirilib.

İştirakçılara bölmələrimizin silahlaması olan atıcı silahların natamam sökülüb-yığılması və istifadə qaydaları üzrə məşqlər təşkil olunub.

Növbəti mərhələdə hərbi vəzifəlilər atıcı silahlardan praktiki atışlar icra ediblər.

Təlim toplanışı zamanı, həmçinin ilkin tibbi yardımın göstərilməsi qaydaları öyrədilib, yaralıların ərazidən təxliyə edilməsi üsulları məşq etdirilib.

Azərbaycan Ordusunun silahlanmasında olan müasir silah və hərbi texnikaların taktiki-texniki xüsusiyyətlərinin, istifadə qaydalarının öyrədilməsi məqsədilə keçirilən toplanışda ehtiyatdan çağırılan hərbi vəzifəlilərin praktiki vərdişləri təkmilləşdirilir, bilik və bacarıqları inkişaf etdirilir, eləcə də yeni hərbi biliklər tədris edilir.

## Bakı Hərbi Kollecinin kursantlarının təcrübə mərhələsinə start verilib



Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin 2-ci kursunda təhsil alan kursantlar tədris prosesinin təqvim qrafikinə uyğun olaraq hərbi hissə, müəssisə və təşkilatlarda təcrübə prosesinə başlayıblar.

Milli Müdafiə Universiteti xəbər verir ki, təcrübənin məqsədi kursantların nəzəri biliklərini praktiki bacarıqla möhkəmləndirmək, dərs prosesində öyrəndikləri hərbi bilikləri real qoşun şəraitində tətbiq etmək və gələcəkdə peşəkar gizir kimi formalaşmalarını təmin etməkdir.

Təcrübə hər bir ixtisas üzrə hazırlanmış proqramlara uyğun olaraq həyata keçirilir.

Təcrübənin sonunda müvəffəqiyyət qazanan kursantlara "subbakalavr" peşə ixtisas dərəcəsi, sertifikat, döş nişanı, ixtisas üzrə 3-cü məharət dərəcəsi və "gizir" hərbi rütbəsi veriləcək.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniyaya işgüzar səfəri





(Əvvəli 1-ci səhifədə)

Söhbət zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri səviyyəsində Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq haqqında Sazişə, həmçinin Qara dənizin dibi ilə bərpaolunan enerji resurslarının ixracı üçün elektrik kabel xətti layihələrinə toxunulub.

Avropa İttifaqı ilə əməkdaşlıq üçün bu istiqamətlərdə geniş imkanların olduğu qeyd edilib.

Görüşdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrə toxunulub, bu sahədə də Avropa İttifaqı ilə əməkdaşlıq üçün böyük perspektivlərin mövcud olduğu vurğulanıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

* * *

Albaniyanın paytaxtı Tirana şəhərində "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış mərasimi keçirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Albaniya Respublikasının Baş naziri Edi Rama Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşılayıb.

Toplantı iştirakçıları birgə foto çəkdiriblər.

* * *

Builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak ediblər.

Tədbirdə innovasiya, enerji və sənaye davamlılığına keçid yolu ilə rəqabətqabiliyyətli və iqtisadi təhlükəsizlik, miqrasiya, Avropanın yeni dünya kontekstində lider mövqe tutması kimi mövzular müzakirə olunub.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik və demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi və iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.



* * *

Mayın 16-da Tiranada "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Mayın 16-da Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Albaniya Respublikasının Baş naziri Edi Rama arasında işçi nahar əsnasında görüş olub.

Dövlətimizin başçısı "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısının uğurla təşkil edilməsi münasibətilə Baş nazirə təbriklərini çatdırıb.

Söhbət zamanı Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlərin xüsusilə enerji sahəsində inkişafından, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edilib. Albaniyanın Korça şəhərinin Azərbaycan qazı ilə təchiz edilməsi layihəsinin önəmi vurğulanıb.

Azərbaycan Prezidenti və Albaniyanın Baş naziri ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına işgüzar səfəri mayın 16-da başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

(Əvvəli 1-ci səhifədə)

# "Müasir dövrün təhdidləri: hədəf - həqiqətdir!"

Ordu quruculuğu ictimai proses kimi daim medianın diqqət mərkəzindədir. Bu da təbiidir. Yaxın günlərdə Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən "İctimai proseslər media müstəvisində" adlı forumda da bu istiqamətdə əhəmiyyətli fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib. Forumda Müdafiə Nazirliyinin idarə rəisi polkovnik Anar Eyvazovun iştirakı hərbi mövzuların aktuallığını bir daha təsdiqlədi.

Ordu və xalq arasında dialoqun medianın gündəmində yer alması ilə bağlı bəzi mülahizələri də bölüşmək istərdik. Heç kimə sirr deyil ki, ordu cəmiyyətin ayrılmaz hissəsidir, ölkə daxilində və dünyada baş verən yeniliklər onun fəaliyyətinə də təsir göstərir. Rəqəmsal media, sosial şəbəkələr, süni intellekt, neyroşəbəkə və koqnitiv müharibə kimi müasir texnologiyalar hərbi qurumların fəaliyyətinə təsir edən reallıqlardır.

Bu reallıqlar ölkəmizdə, eləcə də Müdafiə Nazirliyində çevik, effektiv və əlçatan kommunikasiya siyasətinin həyata keçirilməsini zəruri edir. Mövcud vəziyyətə adekvat reaksiya verilməsi vacibdir. Müasir texnologiyalar informasiya təhlükəsizliyi baxımından həm imkan, həm də risklər doğurur. İnformasiyanın əlçatanlığı və sürətli yayılması qurumlar arasında operativliyin artırılmasını tələb edir. Lakin bu, heç bir halda dövlət və hərbi sirlərin yayılması ilə nəticələnməməlidir. Bu məsələyə yanaşmada qanunlara əməl olunması, dövlət maraqlarının qorunması ön plandadır.

Son illər bu istiqamətdə Müdafiə Nazirliyində mühüm işlər görülüb. Sosial şəbəkələr və digər internet platformaları üzərindən yayılan foto və videoların, xidmətə dair məlumatların təhlükə doğurduğu, bəzi hallarda dövlət sirri təşkil edən informasiyaların paylaşılması faktları hələ də mövcuddur. Bu sahədə həm hərbi qulluqçular, həm də onların yaxın ətrafısı tərəfindən ehtiyatsızlıq hallarına rast gəlinir. Ailə üzvlərinə göndərilən şəkil və videoların paylaşılması düşmənin xüsusi xidmət orqanlarına geniş məlumat əldə etmək imkanı verir, təxribat və şantaj riski yaradır.

Media nümayəndələrinin də Müdafiə Nazirliyi ilə dəqiqləşdirmədən hərbi mövzuda məlumat paylaşmaları, təsdiqlənməmiş informasiyaların tirajlanması, xüsusilə də internet media vasitəsilə yayımlanması halları müşahidə olunur. Bu isə nəticədə ordunun imicinə zərbə vurur.

Ən effektiv qarşı tədbirlərdən biri də ordu-media münasibətlərinin gücləndirilməsi, ələqələrin genişləndirilməsi, hərbi mövzularda operativ məlumatlandırmanın təmin olunması və dezinformasiyalara reaksiyanın dərhal verilməsidir. Bu istiqamətdə son illər ciddi uğurlar əldə olunub. Nazirlik bu məsələləri sistemli şəkildə həyata keçirir, media nümayəndələrinə mütəmadi olaraq təlimat xarakterli məlumatlar təqdim olunur.

Aktiv kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınması məqsədilə qanunvericiliyə uyğun addımlar atılır, əmr və sərəncamlar qəbul edilir, maarifləndirici söhbətlər və izahat işləri aparılır. "Dövlət sirri haqqında" Qanunun tələbləri hərbi qulluqçulara izah olunur.

Yeni texnologiyalar, süni intellekt və sosial media həm imkanlar yaradır, həm də təhlükələr doğurur. Bu baxımdan ictimaiyyətə dəqiq və dolğun məlumatların çatdırılması, hərbi xidmətin təşviqi, vətənpərvərliyin təbliği, informasiya təhlükəsizliyin qorunması mühüm əhəmiyyət daşıyır.

Media subyektləri, hərbi ekspertlər, bloqçularla birgə fəaliyyətin təşkili ictimai fikrə təsir imkanlarının düzgün idarə olunması, qarşıya çıxan problemlərin ortaq əməkdaşlıqla həlli, nəticə etibarilə bu sahədə də uğurların əldə olunmasına şərait yaradacaq.

Sonda qeyd edək ki, ordu quruculuğu mövzusunun media məkanında xüsusi yer tutması qürurverici olmaqla yanaşı, milli mediamızın vətənpərvərlik hisslərinin təbliği, ordu məsələsinə həssas və vətəndaş mövqeyindən yanaşması baxımından da önəmli bir göstəricidir.

**İsa İSMAYILOV**
**hərbi jurnalist,**
**Nadiyə QAFAROVA**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü**

# Azərbaycan Ordusu miqyasında komanda-qərargah məşqi keçirilir





2025-ci ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusu miqyasında komanda-qərargah məşqi keçirilir.

Müdafiə Nazirliyinin baş idarə və idarələri, eləcə də qoşun və qüvvə növləri, Əlahiddə Ümumqoşun Ordunun qərargahlarının cəlb olunması ilə keçirilən məşqin planına əsasən, hərbi qərar qəbuletmə prosesinə uyğun fəaliyyətlər icra olunur.

Müdafiə Nazirliyi xəbər verir ki, mayın 15-də müdafiə naziri general-polkovnik Zakir Həsənov videobağlantı formatında qərargahların məruzələrini dinləyib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun fəaliyyətindən razılığını bildirib və ordu qarşısında qoyulan tapşırıqları çatdırıb.

Real döyüş şəraitində müasir döyüş təcrübəsinə uyğun keçirilən komanda-qərargah məşqinin məqsədi bölmələrin manevr imkanlarını nəzərə almaqla hərbi qərar qəbuletmə prosesinin daha da təkmilləşdirilməsi, eləcə də müdafiə və əks-hücum əməliyyatlarının aparılması məsələlərinin məşq etdirilməsidir.

# Türkiyə MMU-nun nümayəndə heyətinin ölkəmizə səfəri davam edir

Türkiyə Milli Müdafiə Universitetinin (MMU), eləcə də Hərbi Hava və Hərbi Dəniz İnstitutlarının rəhbər heyətlərinin, müəllimlərinin, "Qərargahın idarə olunması kursu"nun dinləyicilərinin ölkəmizə səfəri davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, səfərin proqramına uyğun olaraq, qonaqlar Azərbaycan Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində olublar.

Türkiyəli nümayəndələrə hərbi hissənin yaranma tarixi, strukturu və Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsində fəaliyyəti barədə brifinq təqdim olunub.

Sonra hərbi hissənin silahlanmasında olan bəzi uçuş texnikaları, aviasiya vasitələri qonaqlara əyani olaraq göstərilib, onların taktiki-texniki xüsusiyyətləri barədə ətraflı məlumat verilib.





Türkiyə nümayəndə heyəti hərbi hissənin Təlim və Tədris Mərkəzinə də baş çəkiblər. Burada türkiyəli dinləyicilərə hava hücumundan müdafiə kompleksinin sinif məşq qurğusunda praktiki atış etmələrinə şərait yaradılıb.

Daha sonra nümayəndələr MMU-nun Hərbi Elmi Tədqiqat İnstitutunun Hərb Oyunları Mərkəzini ziyarət ediblər.

Qonaqlara hərbi təhsil sistemi, MMU-da hərbi təhsil sahəsində aparılan islahatlar, tədris və elmi fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Heydər Əliyev adına Hərbi İnstituta gələn nümayəndə heyətinə hərbi institutun yaranma tarixi, təhsil və tədris prosesi haqqında brifinq təqdim olunub.

Türkiyəli qonaqlar İnstitutun ərazisindəki muzeydə sərgilənən fotostendlə tanış olublar. Burada Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın yaranması, dövlətçiliyin möhkəmləndirilməsi və ordu quruculuğundakı fəaliyyətini əks etdirən guşələr, həmçinin digər eksponatlar qonaqların marağına səbəb olub.

Plana əsasən, Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsinə gələn nümayəndə heyəti burada dəniz xüsusi təyinatlılarının silah və texniki vasitələri ilə tanış olublar. Qonaqlar dəniz piyadalarının nümunəvi çıxışlarını izləyiblər.

Səfər çərçivəsində Türkiyə nümayəndə heyəti, həmçinin Azərbaycan Hərb Tarixi Muzeyini də ziyarət edib.

# "Anatolian Phoenix-2025" beynəlxalq təlimi davam edir



**(Əvvəli 1-ci səhifədə)**

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə təlimin planına uyğun olaraq keçirilən brifinqdə təlim iştirakçılarına təhlükəsizlik qaydaları, yerinə yetiriləcək tapşırıqlar və onların icra ardıcıllığı, axtarış-xilasetmə tədbirlərinin görüləcəyi ərazinin relyefi və iqlimi ilə bağlı zəruri məlumatlar verilib.

Beynəlxalq təlimdə iştirak edən müxtəlif ölkələrin təyyarələri birlikdə "fil yürüşü" ediblər. Sonra iştirakçılar uçuş tapşırıqlarının yerinə yetiriləcəyi rayonlara baxış keçiriblər.



Həmçinin ərazi ilə tanışlıq məqsədilə praktiki uçuşlar yerinə yetirilib. Uçuşlar zamanı qarşılıqlı fəaliyyət və rabitə əlaqəsi yoxlanılıb.

Qeyd edək ki, təlim mayın 23-dək davam edəcək.

# Silah və texnika yaz-yay mövsümü istismarı rejiminə keçirilib







2025-ci ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun bütün qoşun növləri və hərbi hissələrində silahların, döyüş və xüsusi texnikaların, eləcə də aviasiya vasitələrinin yaz-yay mövsümü istismarı rejiminə keçirilməsi üzrə kompleks tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi hissələrin texniki xidmət məntəqələrində silahların və texnikaların yaz-yay mövsümündə fasiləsiz, dayanıqlı istismarını təmin etmək məqsədilə iqlim şəraitinin xüsusiyyətləri də nəzərə alınmaqla yanacaq-sürtkü materialları dəyişdirilib, elektrik sistemlərinin vəziyyəti yoxlanılıb və onlara mövsümi qulluq göstərilib.

Keçirilən tədbirlər çərçivəsində hərbi hissələr mərkəzləşdirilmiş qaydada zəruri ehtiyat hissələri və avadanlıqlarla tam təmin edilib.

Qeyd edək ki, silahların və texnikaların yaz-yay mövsümü istismarı rejiminə keçirilməsi ilə əlaqədar bölmələrin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazırlığının yüksək səviyyədə saxlanılması üçün planlaşdırılmış bütün tədbirlər təhlükəsizlik qaydalarına uyğun həyata keçirilib.

# Bakıda Azərbaycan və Qazaxıstan hərbi nümayəndə heyətləri görüşüb

*Azərbaycan və Qazaxıstan respublikalarının Müdafiə nazirlikləri arasında 2025-ci il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Qazaxıstan Respublikasının Baş Qərargah rəisinin müavini - Milli Müdafiə İdarəetmə Mərkəzinin rəisi general-mayor Fayzulla Badenovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.*










Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar əvvəlcə Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, üzərinə gül dəstələri düzüb, xatirələrinə ehtiram nümayiş etdiriblər.

Səfər çərçivəsində nümayəndə heyəti Müdafiə Nazirliyinin Döyüşü İdarəetmə Mərkəzində, Hərbi Hava və Hərbi Dəniz Qüvvələrinin Komanda məntəqələrində olub.

Qonaqlara qoşunların gündəlik fəaliyyəti, böhran və fövqəladə hallar zamanı idarə olunması üzrə brifinq təqdim edilib, nümayəndə heyətini maraqlandıran suallar cavablandırılıb.

Keçirilən görüşlərdə bu cür qarşılıqlı səfərlərin iki ölkə arasında hərbi əməkdaşlığın inkişafında mühüm rol oynadığı qeyd olunub.

# Azərbaycan və Belarus hərbi tibb mütəxəssisləri arasında görüş keçirilib



Bakıda Azərbaycan və Belarus respublikaları Müdafiə nazirliklərinin tibb xidmətlərinin nümayəndələri arasında "Hərbi tibb sahəsində əməkdaşlıq" üzrə ikitərəfli görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Belarus nümayəndə heyətinə Azərbaycan Ordusunda tibb xidmətinin təşkili, eləcə də hərbi tibbi təchizatla bağlı brifinq təqdim olunub.

Qonaqlar Müdafiə Nazirliyinin Baş Klinik Hospitalını, Mərkəzi Hərbi və Stomatoloji poliklinikalarını, Hərbi Tibb Fakültəsini, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzini və İstirahət evini ziyarət ediblər.



Hər iki ölkənin nümayəndə heyəti hərbi tibb sahəsində əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıb.



# "Kürəkçay" müqaviləsinin ildönümünə həsr olunmuş "dəyirmi masa" keçirildi

*Azərbaycan Hərb Tarixi Muzeyində "Kürəkçay" müqaviləsinin 220-ci ildönümünə həsr olunmuş "Kürəkçay" müqaviləsi erməni əsassızlığının iddialarının sübutu kimi" adlı "dəyirmi masa" keçirildi.*

Tədbirdə Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsinin hərbi qulluqçuları, Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun alimləri, İnşaat və Memarlıq Kollecinin tələbələri və digər qonaqlar iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra muzeyin rəisi ehtiyatda olan polkovnik Elşad Pənahov açılış nitqi söyləyərək, 1805-ci il mayın 14-də general Sisianov və İbrahimxəlil xanın Gəncə yaxınlığındakı Kürəkçayın sahilində imzaladığı "Kürəkçay" müqaviləsinin XIX əsr Azərbaycan tarixində yeri və əhəmiyyəti, mövcud tərəfləri haqqında danışdı. Polkovnik əsaslı mənbələrlə zəngin çıxışında müqavilənin şərtlərinə əsasən xan, onun varislərinin və xanlığın bütün əhalisinin çar Rusiyası təbəəliyinə qəbul edilməsini vurğuladı, eyni zamanda, bu tarixi sənədin imzalandığı vaxt Qarabağda ermənilərin nəinki söz sahibi olmadığını, hətta onların həmin ərazidə mövcudluğunun belə xatırlanmadığını diqqətə çatdırdı. "Kürəkçay" müqaviləsinin yetərincə və obyektiv tədqiq edilməməsi uydurma erməni tədqiqatlarının yaranmasına səbəb olmuşdur. Onlar Rusiyanın Qarabağ xanı ilə bağladığı müqavilədə məliklərin rolunu şişirdərək, guya hansısa böyük qüvvəyə malik olan erməni məliklərinin müqavilənin bağlanmasında rolundan və iştirakından danışırlar. Hansı ki, bu məliklər alban məlikləri idi və bunların da bu müqavilənin bağlanmasında iştirak etmələri heç bir rəsmi sənəd, faktla təsdiq edilmir. Müqavilənin bundan əvvəlki şərhlərində Qarabağ xanının könüllü rəyinin çar Rusiyası tərəfindən nəzərə alınaraq könüllülük əsasında rəsmiləşdirilməsi kimi qeyd edilirdi. Xanın yaranmış hərbi-siyasi şərait nəticəsində belə bir müqaviləyə imza atmaq məcburiyyətində qalması Azərbaycan tarixinə yeni bir fakt kimi məlum olmuşdur".




Daha sonra "dəyirmi masa"da AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun alimləri "Kürəkçay" müqaviləsinin bağlanması tarixindən və "Kürəkçay müqaviləsinin əsas məğzi" adlı məruzələrlə çıxış edib, mövzu ilə bağlı sualları ətraflı cavablandırıb, müzakirələr apardılar.

"Dəyirmi masa"da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr edilmiş müşavirədə Qarabağ xanı İbrahimxəlil xanın qətlə yetirilməsini çar hakimiyyətinin cinayəti olaraq qeyd etdiyi xüsusi olaraq vurğulandı. Qeyd olundu ki, həmin müşavirədə dövlət başçısı bildirdi: "Kürəkçay" müqaviləsində erməni xalqı haqqında bir kəlmə də yoxdur".

Tədbirin sonunda iştirakçılara "Kürəkçay" müqaviləsinin bağlanmasından bəhs edən sənədli film nümayiş olundu.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Dahinin dühasından doğan müasir Azərbaycan...

## Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV:

*"...Xalq mənim gücüm, inamım, arxamdır, ömrümün sonuna qədər xalqıma, millətimə, doğma Vətənim Azərbaycana sədaqətlə xidmət edəcəyəm...."*

## Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham ƏLİYEV:

*"...Məhz 1993-2003-cü illərdə qoyulmuş möhkəm təməl, başlanmış islahatlar, irəli sürülmüş təşəbbüslər bugünkü reallığı mümkün edibdir..."*

Hər il olduğu kimi, bu il də Fəxri xiyabanda izdiham müşahidə olunur, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşları da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Fəxri xiyabanı ziyarət edib, nəhəng tarixi şəxsiyyətin ruhuna ehtiramlarını ifadə etdilər. Bu, əsl xalq sevgisidir və bu sevgi Ümummilli Liderin milləti və dövləti qarşısındakı misilsiz xidmətlərindən yaranmışdır. Müasir Azərbaycan məhz dahi Heydər Əliyevin dühasından doğmuşdur. Belə ki, müstəqilliyimizin ilk illərində siyasi çəkişmələr ölkə həyatını iflic edir, müharibə şəraitində olan, işğala məruz qalan dövlətdə vahid komandanlığa tabe olan ordu olmadığından silahlı qüvvələr ayrı-ayrı şəxslərin əlində alətə çevrilir, iqtisadiyyat tənəzzülə uğrayır, respublikada vətəndaş həmrəyliyi pozulur, hətta ölkədə "qardaş qanı" axıdılır və vəziyyət Azərbaycan Xalq Cümhuriyyətinin acı taleyinin təkrarlanması, ikinci dəfə qazanılan müstəqilliyin də itirilməsi təhlükəsi həddinə çatır. Belə bir olduqca acınacaqlı vəziyyətdə dövlətçilik ənənələrinə böyük önəm verən və nicatın onda olmasına əmin olan xalq, doğru seçim edərək özünün sınanmış rəhbərini - Ümummilli Lider Heydər Əliyevi israrlı tələblə müstəqil Azərbaycanın rəhbərliyinə dəvət edir.

Bu fikirlər Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi - Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri, Baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi, hüquq üzrə magistr Firad Əliyevin "Dahinin dühasından doğan müasir Azərbaycan..." adlı məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Azərbaycanı və xalqını özündən çox sevən Ulu Öndər bütün təhlükələri gözaltına almaqla, heç birinə məhəl qoymadan xalqın çağırışını qəbul edərək, 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəlir və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Bir müddət sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan dünyaşöhrətli siyasətçi Heydər Əliyev, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilir. Hər bir Azərbaycanlı bilir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin anda dünyaşöhrətli siyasətçi, böyük tarixi şəxsiyyət hakimiyyətə gəlməsəydi, nəinki bugünkü qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə, onun mövcudluğu sual altında ola bilərdi.

Dahi Lider ölkəni böhran vəziyyətindən, müstəqilliyini itirmək təhlükəsindən xilas etmək üçün müdrik siyasəti ilə qısa müddət ərzində vətəndaş qarşıdurmasının və müharibənin dayandırılmasına nail olmaqla, Azərbaycanda sabitliyin bərpasını təmin edir ki, bu da genişmiqyaslı islahatların başlanmasına rəvac verir. Beləliklə də, ölkəsini olduqca ağır vəziyyətdən yüksək məharətlə çıxarmış Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə bütün sahələrdə hərtərəfli islahatlar həyata keçirilməyə başlanılır. Məlum olduğu kimi, Ulu Öndərin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk illərində ölkəmiz vətəndaş müharibəsindən yenicə qurtulmuş, atəşkəs rejimini təzəcə əldə etmiş ölkə olduğundan, həmin dövrdə investorları Azərbaycana sərmayə qoymaq üçün həvəsləndirmək, onların etimadını qazanmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ idi. Bununla belə, peşəkar siyasətçi 1994-cü ilin sentyabrında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə edilməsi barədə "Əsrin müqaviləsi" kimi möhtəşəm bir müqavilənin bağlanılmasına müvəffəq oldu. Sözsüz ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulması, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan "Şahdəniz" layihəsinin, həmçinin "İpək Yolu" layihəsinin reallaşması da bu dahi şəxsiyyətin xidmətləri idi. Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir-biri ilə, eləcə də bütün dünya ilə birləşdirilməsinə xidmət edən, eyni zamanda, məqsədi Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarət olan tarixi "İpək Yolu" layihəsinin reallaşdırılmasında Bakı-Tbilisi-Ceyhan boru xəttinin mühüm əhəmiyyətini nəzərə alan aqil Lider, bu səbəbdən əvvəlcə bütün qüvvəsini həmin xətt layihəsinə yönəldib. Tarix onun növbəti uzaqgörənliyini təsdiq etdi və göstərdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xəttinin, Şərq-Qərb nəqliyyat dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və qədim "İpək Yolu"nun bərpası Ulu Öndər Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının qüdrətlənməsinə yönələn müdrik siyasəti olmaqla bərabər, həm də türk dünyasının birləşdirilməsinə hesablanıb.

Xalqı və dövləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin milləti qarşısındakı ən böyük xidmətlərindən biri də, Azərbaycanın gələcək taleyində müstəsna rolu olan, Vətənin və vətəndaşların maraqlarını hər şeydən uca tutan cənab İlham Əliyev kimi bütün ali insani keyfiyyətlərə malik böyük tarixi şəxsiyyət və müdrik rəhbər hazırlaması olub. Bu ondan irəli gəlirdi ki, Azərbaycanı canından çox sevən uzaqgörən insanı ölkəsinin təkcə özünün rəhbərlik etdiyi dövr üçün deyil, ondan sonrakı taleyi də düşündürürdü. 2003-cü ildə səhhətində ciddi problemlər yaranan vaxtlarda belə öz sağlamlığını deyil, xalqının və Vətəninin firavan gələcəyini fikirləşən böyük qəlbli şəxsiyyət Heydər Əliyev ictimai rəyə və ümumxalq mövqeyinə əsaslanmaqla Azərbaycan xalqına müraciət edərkən cənab İlham Əliyevi ondan sonra Respublikaya rəhbərlik etməyə qadir lider kimi gördüyünü bildirib. Ölkəmizin taleyinin həlledici məqamlarında hər zaman olduğu kimi, yenə də Ulu Öndər Heydər Əliyevin müdrik məsləhətinin intizarında olan xalq məhz sonsuz inam bəslədiyi rəhbərin millətinin və dövlətinin gələcəyini düşünməklə verdiyi çox dəyərli tövsiyəsindən bəhrələnərək düzgün seçim etməklə, bu gün bənzərsiz fəaliyyəti digər dövlət başçılarına örnək olan cənab İlham Əliyevi özünə Prezident seçir. Bundan sonra Ulu Öndərin sürətli iqtisadi inkişaf konsepsiyasını uğurla davam etdirən Prezidentin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilir, həmçinin iqtisadiyyatımızın daha da güclənməsinə xidmət edən digər əhəmiyyətli işlər görülür, tərəqqinin davamlılığı təmin olunur. Belə ki, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. Bundan başqa, 2018-ci ildə Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində mühüm rol oynayan Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin Bakıda rəsmi açılış mərasimləri keçirilib. Bundan əlavə, 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci il sentyabrın 14-də yeni, ölkəmiz üçün daha əlverişli şərtlərlə 2050-ci ilə qədər uzadılıb, bu isə Azərbaycanda bundan sonra da uzun illər neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına zəmin yaradıb.

Xüsusi vurğulamaq lazımdır ki, praqmatik Lider İlham Əliyevin yürütdüyü son dərəcə təmkinli və balanslaşdırılmış siyasət sayəsində 12 avqust 2018-ci il tarixdə Qazaxıstanda 5 Xəzəryanı dövlət başçılarının iştirakı ilə imzalanan tarixi Aktau Konvensiyası ilə 1996-cı ildən davam edən Xəzərin hüquqi statusu ilə bağlı 22 illik danışıqlar milli maraqlarımızı qane edən sonluqla bitib və Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi birdəfəlik öz həllini tapıb. 2018-ci il oktyabrın 19-da Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü olaraq birgə səylərlə reallaşdırılan, hər iki dövlətin iqtisadi inkişafına, bütövlükdə regionun tərəqqisinə böyük töhfə olan "Star" neft emalı zavodunun açılışı da neft strategiyasının uğurlarından olub. Azərbaycandan Avropa bazarlarına təbii qazı ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilib, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsi də yekunlaşdırılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də müstəsna əhəmiyyətli işlər görülüb. Belə ki, təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olub. 2018-ci il sentyabrın 18-də isə yeni Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün işlər başa çatdırılıb. Təbii ki, bu uğurlar iqtisadi islahatların siyasi islahatlarla eyni vaxtda və yüksək peşəkarlıqla aparılması nəticəsində qazanılıb.

Sevindirici və qürurvericidir ki, bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrü olmasına, müharibədən yeni çıxmış dövlət olmağımıza rəğmən, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanın sürətli inkişaf strategiyasını dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə reallaşdıran Prezident İlham Əliyevin müdrik siyasəti və sarsılmaz Prezident-Xalq birliyinin sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür, mütəmadi həyata keçirilən çoxşaxəli və ardıcıl islahatlar davam etdirilir, regionların tarazlı tərəqqisi təmin olunur, həmçinin qeyri-neft sektorunun inkişafı istiqamətində kompleks stimullaşdırıcı tədbirlər həyata keçirilir və sair böyük işlər görülür. Bir sözlə, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız intibah dövrünü yaşayır. Dövlətimizin hərtərəfli qüdrətlənməsində və əldə olunan ardıcıl uğurlarda, eləcə də beynəlxalq əlaqələrimizin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında zəngin biliklərə, dərin düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik, hər bir məqamda dövlət başçısının yanında olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Bu gün Respublikamızın digər bölgələrinin sürətli tərəqqisi ilə yanaşı, vaxtilə ermənilər tərəfindən viran qoyulmuş kənd və şəhərlərimizdə sürətli abadlıq-quruculuq işləri aparılır. Həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən olan bu proses dövlətimizin başçısının şəxsi nəzarəti ilə reallaşdırılır ki, bunun da nəticəsində Vətənin hər bir guşəsi gülüstana çevrilir. Hazırda geniş tikinti-quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda dövlətimizin başçısının tapşırıqları və tövsiyələri əsasında "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, bütün infrastrukturların yenidən qurulması, avtomobil və dəmir yollarının, elektrik, su və qaz xətlərinin çəkilməsi, hava limanlarının, tunellərin, körpülərin, müasir yaşayış komplekslərinin, məktəblərin, xəstəxanaların, su-elektrik stansiyalarının tikilməsi prosesi müvəffəqiyyətlə həyata keçirilir ki, bu da dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Respublikamızın qüdrətini və iqtisadi gücünü sübut edən növbəti bariz nümunədir. Son dövrlər yüzlərlə azərbaycanlı ailəsinin öz dədə-baba yurdlarına qayıtmasının şahidi oluruq ki, bütün bunlar təbii olaraq hər birimizi iftixarlandırır.

Azərbaycanın taleyinə Günəş kimi bərq vuran vətənpərvər fenomen Heydər Əliyevin uzaqgörənliyi bu gün də millətimizə və dövlətimizə fayda verməkdədir. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş böyük dövlət xadimi Heydər Əliyevin mütərəqqi ideyaları onları hər zaman fəaliyyətində rəhbər tutan Prezident İlham Əliyevin yürütdüyü mükəmməl siyasətdə yaşayır və dövrün tələblərinə uyğun uğurla həyata keçirilir ki, bu da dövlətimizin daha da qüdrətlənməsini və xalqın rifahının hərtərəfli yaxşılaşmasını şərtləndirir.

Bütün bunlar isə qəti əminliklə onu deməyə əsas verir ki, nə qədər Azərbaycan dövləti və milləti var, dünya miqyaslı böyük tarixi şəxsiyyət Heydər Əliyevin parlaq siması qədirbilən insanların qəlbində hər zaman yaşayacaq, onun əziz və unudulmaz xatirəsi həmişə yüksək ehtiramla yad ediləcək.

*Heç kim unudulmur*

# El bir olsa, dağ oynadar yerindən...





18 may 1992-ci il. Həmin tarixdəki Sədərək hadisələrindən 33 il keçir. Lakin tarix olduğu kimi qalır, unudulmur...

Ölkənin başını qara buludlar alanda ilk zərbə görən bölgələrdən biri Ermənistanla sərhəddə yerləşən Sədərək oldu. Hələ qanlı Yanvar hadisələrindən iki gün əvvəl 1990-cı il yanvarın 18-i Sədərəyə hücum edən düşmən mühüm strateji əhəmiyyətə malik olan Kərki kəndini işğala məruz qoyur. Naxçıvana giriş qapısı kimi Sədərək mühüm əhəmiyyət daşıyırdı və hədəfdə bütövlüklə Sədərək səddini yarmaq, Naxçıvanı işğal etmək idi. Beləcə, Sədərək ağır sınaqla üz-üzə qalır. Düşmən Sədərəyi ağır artilleriya atəşinə tutmağa başlayır. Eşidilən atəş səsləri sədərəkliləri səfərbər edir. Naxçıvanın müxtəlif bölgələrindən - Şərurdan, Ordubaddan, Culfadan, Babəkdən, Naxçıvan şəhərindən gələnlər sinələrini düşmənin önündə sipər edirlər. Yanvarın 19-da Sədərək ilk şəhidlərini verir: Məhərrəm Seyidov, Mirhəşim Seyidov, Məmməd Məmmədov, Etibar Əhmədov, İdris Məmmədov, Abbasəli Nəzərəliyev, balaca Malik və Elvin qardaşları.

Düşmənin məkrli planı, güclü texnika ilə qəfil hücumu və bu qəfil hücuma hazırlıqlı olmayan sədərəklilər. Sədərək Naxçıvanın müdafiə qalasına çevrilir. 1990-cı il iyulun 22-də Naxçıvana gələn Ulu Öndər Heydər Əliyev iyulun 28-də Sədərək kəndinə gəlir. Sədərəkdə baş verən hadisələrdən, azğın ermənilərin Sədərək üzərinə hücumlarından danışaraq oranın əhalisini daha dözümlü, daha əzmkar olmağa, düşmən qarşısında daha mətanətlə dayanmağa səsləyir.

Bu yurd yeri 1990-93-cü illərdə 14 dəfə ermənilərin güclü hücumuna məruz qalıb. Sədərəyə 300-ə yaxın top mərmisi atılıb, 500-ə yaxın ev, məktəb, ictimai-inzibati binalar, sosial obyektlər dağıdılıb.

Sədərəkdə qanlı döyüşlər 1992-ci ilin mayına təsadüf edir. 18 may tarixində strateji baxımdan mühüm coğrafi mövqedə yerləşən Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilir. Ermənilərin digər planına əsasən həmin gün Sədərək səddi də yarılmalı idi. Digər tərəfdən məqsəd Naxçıvanı Türkiyə ilə birləşdirəcək strateji məntəqəni nəzarətə götürmək idi.

Erməni təcavüzkarları bütün qüvvələrini cəmləşdirib üç istiqamətdən - Əjdəkan dağı, Beşbarmaq-Ucubiz və Mil dağı-Qaraburun istiqamətlərindən hücuma keçir. Düşmənin ağır hücum əməliyyatları nəticəsində Sədərək 32 şəhid verir. Yaralıların sayı isə bundan da çox. Mildə şəhid olanlardan bir neçəsinin cəsədini götürmək mümkün olmur. Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində 10 gün sonra şəhidlərimiz döyüşdükləri səngərdən götürülərək torpağa tapşırılır. Dahi lider Heydər Əliyev həmin ağır günlərdə Sədərəyin müdafiəsində yaralananların taleyinə bir an belə biganə qalmır, onların müalicəsi ilə maraqlanır, ağır yaralıların qardaş Türkiyənin müxtəlif şəhər xəstəxanalarına göndərilməsi üçün ciddi tapşırıqlar verir. Beləliklə, öz yurdunda mərd-mərdanə dayanan sədərəklilərin və onların köməyinə yetən Vətən oğullarının şücaəti sayəsində düşmənin Sədərək planı yerlə-yeksan olur. Bununla belə baş verən hadisələri, düşmənin riyakar hücumunu dünyaya çatdırmaq üçün müvafiq tədbirlər həyata keçirilir.

O zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan Ulu Öndər Heydər Əliyevin ciddi siyasi və diplomatik fəaliyyəti nəticəsində vəziyyət stabilləşdirildi, erməni təcavüzünə qarşı ciddi diplomatik savaş açıldı, dünya mediasının diqqətini Naxçıvana yönəltməklə, bölgəmizə qarşı məkrli planların qarşısı alındı. Bir çox dövlət və beynəlxalq təşkilatlar Naxçıvana hücumları pislədi. Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin çağırışı ilə Almaniyanın "ARD" kanalı Naxçıvana gələrək, döyüşləri və real vəziyyəti işıqlandıran videoreportaj hazırladı. 1992-ci il mayın 28-i tarixə əlamətdar hadisə kimi düşür. Türkiyənin baş naziri Süleyman Dəmirəlin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin iştirakı ilə Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid" körpüsü açılır. Beləcə, ermənilərin Naxçıvanı işğal ümidləri puça çıxır.

1993-cü ilə qədər davam edən döyüşlərdə naxçıvanlılar Ulu Öndər Heydər Əliyevin ətrafında sıx birləşərək Sədərəyi mərdliklə qorumağa müvəffəq olurlar. Necə deyərlər, el bir olsa, dağ oynadar yerindən.

Artıq o hadisələrin üzərindən illər keçib. 44 günlük Vətən müharibəsi ermənilərin nəinki Naxçıvan, ümumən Qarabağ xəyallarının üstündən birdəfəlik xətt çəkib. Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. Bu gün dünyada öz siyasi çəkisi, söz sahibi olan ölkəmizin daha da parlaq gələcəyi üçün mühüm layihələr gerçəkləşdirilir. Məcburi köçkünlər öz yurduna, yuvasına qayıdır. Qarabağ, Şərqi Zəngəzur nəhəng tikinti meydançasına çevrilib.

Baş verən hadisələr, qanlı faciələr artıq tarixə qovuşub. Lakin biz o tarixi heç vaxt unutmuruq. Zəfər yolunda cığır açan şəhidlərimiz isə hər zaman ehtiramla anılacaq.

**Ruhiyyə RƏSULOVA**
**"Şərq qapısı" qəzetinin**
**məsul katibi**



*Fiziki hazırlıq*

# Vətən qoruyucularımızın fiziki hazırlığı hər zaman diqqət mərkəzindədir

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, idmanın inkişafı da dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Qısa zaman kəsiyində həyata keçirilən kompleks islahatlar nəticəsində Azərbaycan idman ölkəsinə çevrildi, idmançılarımız beynəlxalq arenalarda möhtəşəm qələbələrə imza atdılar.

Ulu Öndərin başladığı və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində ölkəmiz regionun ən güclü dövlətinə çevrildi.

Azərbaycanın iqtisadi qüdrətinin gündən-günə artması bütün sahələrdə olduğu kimi, idmanın tərəqqisinə də müsbət təsir göstərdi. Bu gün də ölkəmizdə idmana dövlət səviyyəsində diqqət və qayğı göstərilir. Nəinki Bakıda, həmçinin regionlarda bir çox müasir olimpiya komplekslərinin tikilərək istifadəyə verilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi yuxarıda sadaladıqlarımızın bariz nümunəsidir.

Bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da idmana yüksək diqqət göstərilir. Çünki fiziki hazırlıq Vətən müdafiəçilərimizin sağlam, iradəli və dözümlü olmalarını təmin edir. Məhz buna görə də bölmələrdə torpaqlarımızın müdafiəsində dayanan igid oğullarımızın digər hazırlıqları yanaşı, fiziki hazırlığına ciddi nəzarət edilir.

"N" hərbi hissəsində olduğumuz zaman şəxsi heyətin fiziki hazırlıq məşğələsini izlədik. Günün nizam qaydalarına uyğun olaraq, hərbi qulluqçularla gün ərzində iki dəfə, səhər və axşam məşğələlər keçirilir. Hərbi hissədə müasir standartlara uyğun salınan idman şəhərciyi hərbi qulluqçularımızın idmanın bütün növləri ilə məşğul olmasına geniş şərait yaradır.

Məşğələ rəhbəri baş gizir Anar Əsədov söhbət zamanı bildirdi ki, əsgərlərimizin döyüş hazırlığının yüksəldilməsində fiziki hazırlıq məşğələlərinin mühüm rolu var. "Şəxsi heyətin fiziki cəhətdən hazırlıqlı olması vacib amillərdəndir. Məhz bu səbəbdən də əsgərlərin hərtərəfli hazırlığına xüsusi diqqət yetirilir. Döyüş əməliyyatlarında qarşıya qoyulmuş tapşırıqları yüksək səviyyədə və vaxtında yerinə yetirmək üçün hər bir hərbi qulluqçu fiziki cəhətdən güclü olmalıdır. Günün nizam qaydasına uyğun olaraq keçirilən məşğələlər sayəsində əsgərlərimizin özünəinam hissləri artırılır. Həmçinin Vətən müdafiəçilərimizin fərdi hazırlığına da hər zaman diqqət ayırırıq. Bir çox əsgər ordu sıralarına çağırılanadək idmanın müxtəlif növü ilə məşğul olub. Aralarında elələri də var ki, respublika, hətta beynəlxalq əhəmiyyətli yarışların iştirakçısıdır. Əsgərlərimizin fiziki hazırlığının daim yüksək səviyyədə saxlanılması, idman məşğələlərinin daha səmərəli keçirilməsi üçün bütün imkan və vasitələrdən istifadə edirik".



Hərbi qulluqçumuzun idman haqqında bu qədər biliyə malik olması məndə xoş təəssürat yaradır. Öyrənirəm ki, gizir A.Əsədov idmanın sərbəst güləş növü ilə məşğul olub, Sumqayıt şəhərində keçirilən zona birinciliyinin qalibi olub. Hərbi xidmət dövründə isə hərbi qulluqçumuz 2005-ci ildə Müdafiə Nazirliyi və 2023-cü ildə Quru Qoşunları üzrə keçirilən hər iki yarışda 3-cü yerə layiq görülüb.

Əsgər Amil Qasımov bildirdi ki, keçirilən məşğələnin köməkliyi ilə fiziki hazırlıqlarını artırırlar. "Çünki biz qalib Azərbaycan Ordusunun hərbi qulluqçusu olaraq düşməndən azad olunmuş torpaqlarımızı göz bəbəyimiz kimi qorumalıyıq. Bizə əmanət olan bu müqəddəs vəzifəni yerinə yetirməyimiz üçün isə döyüş, atəş, mənəvi-psixoloji hazırlıqlarla yanaşı, fiziki hazırlığımızı da yüksək səviyyədə saxlamalıyıq. Çünki döyüş zamanı silah-sursatla müəyyən ərazini dəf etməli və zərurət yaranarsa əlbəyaxa döyüşdə qalib gəlməyi bacarmalıyıq".

Əsgər Tuncay Quliyev dedi ki, idman iradəni, dözümü, gücü artırmaq üçün əsas vasitədir. "Hərbi qulluqçu həm döyüş, həm də fiziki hazırlıq baxımından hər zaman yüksək hazırlığa malik olmalıdır ki, döyüşdə uğur əldə edə bilsin".

Vətən müdafiəçilərimiz müddətli hərbi xidmətə çağırılanadək idmanın cüdo növü ilə məşğul olub, milli komandanın üzvü olub. 2021-ci ildə Latviyanın paytaxtı Riqa şəhərində keçirilən Avropa birinciliyində 3-cü yerə layiq görülüb. Hərbi xidmət dövründə isə ordu üzrə keçirilən birinciliklərdə iştirak edib.

Digər hərbi qulluqçularımız da hərbi hissədə onlar üçün yaradılan şəraitdən, komandir heyətinin onlara göstərdiyi diqqət və qayğıdan ağızdolusu danışaraq bildirdilər ki, torpaqlarımızın müdafiəsində mətin dayanır, istənilən təxribatların qarşısını almağa hər zaman hazırdırlar.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** 1918-1920-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu.

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması.**

**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri.**

### Azərbaycan Xalq Cümhuriyyətinin yaranması

Müstəqil milli dövlətə sahib olmaq hər bir xalqın ən böyük uğuru və tarixi nailiyyətidir. Xalqımız yadellilərlə mübarizə apararaq yurd yerlərini işğaldan qoruyub, həmişə də öz taleyinə sahib olmağa, özünün müstəqil dövlətini qurmağa can atıb. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və fəaliyyəti Azərbaycanın zəngin dövlətçilik tarixində çox mühüm bir mərhələni təşkil edir. Tarix boyu Azərbaycanın ərazisində müxtəlif dövlətlər qurulsa da, ayrı-ayrı səbəblər üzündən uzun müddət yaşaya bilməyib. Xalq Cümhuriyyətinin yaradılması, əslində, 1828-ci ildə baş tutan işğaldan sonra xalqımızın itirilmiş dövlətçiliyinin bərpası idi.

Birinci Dünya müharibəsinin gedişində "xalqlar həbsxanası" adlandırılan Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müstəqil dövlət halında yaşamağa hazır idi. 1917-ci ilin fevralında Rusiyada monarxiya rejimi devrildi. Hakimiyyətə gələn Müvəqqəti hökumət Müəssisələr Məclisinə seçkilər keçirdi. Lakin Müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrında hakimiyyətdə çevriliş baş verdi. Ona görə də Cənubi Qafqazdan Müəssisələr Məclisinə seçilən deputatlar Rusiyaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini-Zaqafqaziya Parlamentini yaratdılar. Seymdə Müsəlman fraksiyasını Müəssisələr Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Müsəlman fraksiyası və ya Müsəlman Şurası, əslində, Zaqafqaziya müsəlman parlamenti funksiyasını yerinə yetirirdi. 1918-ci il aprelin 9-da Zaqafqaziya Seyminin Azərbaycan nümayəndələrinin tələbi ilə Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Lakin kəskin milli mənafe ziddiyyətləri onların konkret addımlar atmasına imkan vermədi. Nəticədə 1918-ci il mayın 25-də gürcü nümayəndələr Seymdən çıxdılar və mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər. Mayın 28-də isə Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi Konstitusiya aktı statusuna malik olan ilk hüquqi sənəd - "İstiqlal Bəyannaməsində" müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan olunmuş, onun hakimiyyətinin şamil edildiyi ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır.

Lakin, əfsuslar olsun ki, müstəqilliyə gedən yol heç də asan olmamış, Cümhuriyyət yaranmamışdan öncə xalqımızın taleyində dəhşətli hadisələr baş vermişdir. Tarixin müxtəlif mərhələlərində "böyük Ermənistan" ideyasını gerçəkləşdirməyə çalışan erməni millətçiləri bolşevik silahlı dəstələri ilə birgə 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. Həmin günlərdə Bakı şəhərində və respublikamızın digər bölgələrində on minlərlə dinc sakin yalnız azərbaycanlı olduqlarına görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir.

### Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə dövlət quruculuğu

1918-ci il mayın 27-də Seymin Müsəlman Fraksiyasının, yəni, Zaqafqaziya müsəlman Şurasının üzvləri ayrıca iclas keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla, əslində, Azərbaycanın tarixində ilk parlament yarandı və ilk parlament respublikasının bünövrəsi qoyuldu. Həmin iclasda Azərbaycan Milli Şurasının rəyasət heyəti və sədri seçildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. 1918-ci il mayın 28-də Gürcüstanın paytaxtı Tiflis şəhərində keçmiş seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi Milli Şuranın birinci iclasında Azərbaycanın müstəqil dövlət elan olunması haqqında qərar qəbul olundu və "İstiqlal Bəyannaməsi"nin mətni təsdiqləndi. Dövlət müstəqilliyinin Tiflis şəhərində elan edilməsinin əsas siyasi səbəbi ölkənin paytaxtı Bakı şəhərinin başda Stepan Şaumyan olmaqla, cinayətkar bolşevik rejiminin əlində olması idi. Cənubi Qafqaz respublikaları ilə sərhəd məsələləri qismən nizama salındıqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113.9 kv.km-ni əhatə etmiş, əhalisi isə 2.8 milyondan çox olmuşdur. Beləliklə, Birinci Dünya müharibəsinin gedişində və Romanovlar monarxiya rejiminin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, parlamentli respublika formasında dirçəldi.

Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərinin yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq tarixi şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanılmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. 1918-ci il noyabrın 1-də Nazirlər Şurasının qərarı ilə Hərbi Nazirlik yarandı. F.Xoyski nazir, S.Mehmandarov nazir müavini təyin edildi və nazirliyin formalaşdırılması onlara həvalə edildi. Ordu quruculuğuna türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq, Azərbaycanda milli zəminə söykənən ordu formalaşdırıldı. Hərbi Nazirliyin bərpa edilməsindən sonra, ilk növbədə, pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı və ümumi qərargah "Qlavnıy ştab" yaradıldı.

Mudros müqaviləsinin şərtlərinə görə Bakıya gəlməli olan ingilis qüvvələri komandanı general Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb edirdi ki, türk qoşunları kimi, Azərbaycan qoşunları da 1918-ci il noyabrın 17-dək Bakı şəhərini tərk etsinlər. Çünki Tomson Bakı şəhərini istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi cəhətdən mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan qüvvələrə də etibar etmirdi. Bu səbəbdən 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncə şəhərinə köçdü. Hərbi Nazirliyin Gəncə şəhərinə köçürülməsi, şübhəsiz ki, hökumət orqanlarının əlaqələrində və bütövlükdə ordunun formalaşması prosesində çətinliklər yaradırdı.

Hərbi Nazirlik yaradılana qədər mövcud olan hissə və birləşmələr tarixi şəraitlə əlaqədar Gəncə şəhərində və Qarabağda yerləşdirilmişdir. 1918-ci ilin sonu 1919-cu ilin əvvəlində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi. Tam artilleriya generalı S. Mehmandarov hərbi nazir, general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildi. Onların təcrübəsi və biliyi orduda quruculuq işlərinin səmərəli xarakter almasına zəmin yaratdı. Orduda xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirildi. Qısa müddət ərzində Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün 1917-ci il yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı. Ancaq bu qanunvericilik aktlarının Azərbaycanın müstəqilliyi, milli orduda xidmətin bu və ya digər uyğun gəlməyən tələbləri ləğv edilirdi. Azərbaycan dili orduda da dövlət dili elan edildi. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda kurslar yaradıldı. Azərbaycan döyüşçüsünün mənəvi dünyasının yaradılmasında mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük əhəmiyyət verilirdi. Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyim formasının da milliləşdirilməsi və onun Azərbaycan Ordusuna uyğunlaşdırılması üçün zəruri tədbirlər görüldü.

Yeni dəyərlər üzərində qurulan ordunun milli kadrlarının hazırlanması da Hərbi Nazirliyin qarşısında duran əsas vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncə şəhərində fəaliyyət göstərən hərbi məktəbin fəaliyyəti yenidən quruldu və onun statusu artaraq praporşiklər məktəbinə çevrildi. Praporşiklər məktəbinin bazasında Hərbiyyə məktəbi açıldı. Bundan başqa, Azərbaycan Ordusunun milli hərbi kadrlar hazırlayan istehkam və hərbi dəmiryolçular məktəbi, həmçinin feldşer məktəbi də açıldı.

### Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri

Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq aləmdə tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın cənubunda Denikinin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan Xalq Cümhuriyyətinin sərhədinə cəmləşdirərək işğala hazırlaşırdılar.

Bolşeviklər Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək üçün Qarabağ və Gəncəbasarda məskunlaşan erməni əhalisinin qiyamını təşkil etmək təklifini verdilər. 1920-ci ilin martında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və əmlak itkilərinə məruz qalmışdılar. Aprelin 27-də parlamentin iclasında hərbi nazir Səməd bəy Mehmandarov ölkəni müdafiə barədə sorğuya cavab olaraq bildirdi ki, Azərbaycan Ordusu erməni silahlı birləşmələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI Qırmızı ordu Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI ordunun Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI Qırmızı ordunun hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar və Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu. Aprel işğalı nəticəsində Azərbaycanda bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəslə ötürdü.

1918-ci il mayının 28-də şərqdə ilk dövlət quruluşu kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik tarixinin başlanğıcı olmaqla, milli dövlətçilik salnaməsini müstəsna halda zənginləşdirmişdir. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etmişdir ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna belə qiymət verildi: "1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin".

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsindən istifadə xətti götürüldü. Həmin dövrün dövlət rəmzləri yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının yarandığı ilk günlərdən Ermənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyətin dövlətçiliyimizi təhlükə altına qoyduğunu dərk edən hakimiyyət xalqın təkidi ilə görkəmli dövlət xadimi Ulu Öndər Heydər Əliyevi dövlət rəhbərliyinə dəvət etdi. Məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının dövlət quruculuğunda və bu quruculuğun vacib sahələrindən biri olan ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bilmiş, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi öz layiqli yerini tutmuşdur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaradılması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Əsgər valideyni - adların ən alisi

(Əvvəli 1-ci səhifədə)

Valideyn olmaq övladının ilk kəlməsini duymaq, ilk addımını görməklə yanaşı, onun ilk dəfə məktəbə getməsini, Vətənə xidmətə yollanmasını və nəhayət, onun da sənin kimi valideyn olmasını görməkdir. Sadalananlardan belə qənaətə gəlmək mümkündür ki, valideyn - ata və ana ifadələri dünyanın ən dərin mənalı sözlərindən biri olmaqla yanaşı, ən vacib vəzifələrdən də biridir. Bu vəzifənin ən məsuliyyətli və qürurverici dönəmi isə valideynin əsgər anası və əsgər atası adını alacağı gündən sonra başlayır. Buradan isə bir fikir ortaya çıxır - əsgər valideyni adı bir valideyn üçün bu adların ən alisidir.



### "N" hərbi hissəsində möhtəşəm qələbəlik var

Yaz səhəridir. Günəş öz şüaları ilə ətrafa ılıq sığalını çəkir, səhərin sükutunu oyadırdı. Düşən şüalar həm ümid işığı, həm də öz övladlarını görmək, onların andiçmə mərasimində iştirak etmək istəyən valideynlərin də ürəklərini isidən işıq idi. Bir övlad kimi təmiz, bir ana kimi mərhəmətli idi bu günəşin şüaları. Bu yaz günü "N" hərbi hissəsində ölkəmizin müxtəlif bölgələrindən öz övladlarını görməyə gələn çoxsaylı valideynlərin ömürlərinin ən gözəl və yaddaqalan günü olacaqdı. Valideynlərin gözlərindəki sevinc, övladların üzlərindəki məğrurluq bu günün hər iki tərəf üçün müqəddəsliyinin göstəricisi idi. Ata və analarla yanaşı, bacı, qardaş, baba, nənələr də öz əzizlərini görmək, xəyalını qurduqları günü yaşamaq üçün burada idilər. Andiçmə tədbirində insanların çoxu bir-birini tanımasa da, onları birləşdirən dəyər birdir - övladlarının Vətən müdafiəsi yolunda ilk qədəmlərini atması. Hər bir valideyn öz övladını axtarır və yüzlərlə əsgər balanın arasında öz balasını tanımağa çalışır, hər əsgəri övladı olaraq özününkü bilir. Bir sözlə, "N" hərbi hissəsinin sıra meydanında hər bir əsgərin və onun valideyninin həyatındakı əlamətdar gün olan andiçmə mərasimi keçirilir.



### "Vətən sənə, sən Allaha əmanət, canım oğlum"

Andiçmə mərasimi hər bir əsgər üçün şərəf borcunun, sədaqət prinsipinin göstəricisi, hər bir valideyn üçün isə başucalıq və qürur mərasimidir. Qarışıq emosiaların əhatəsində bir ailə diqqətimi çəkir. Ananın övladına "Vətən sənə, sən Allaha əmanət, canım oğlum" fikri məni ağuşuna aldı. Əsgər övladı Zamiqi görmək üçün Siyəzən rayonunun Məşrif kəndindən gələn əsgər anası Sevda xanım və əsgər atası Zabit Məhərrəmovlar övladlarından doymurdular sanki. Zabit kişi bizimlə söhbətə başladı. "Qalib orduda xidmət etmək, hər bir Vətən övladı üçün böyük iftixardır. Vətəni göz bəbəyi kimi qorumaq gərəkdir. Bu müqəddəs vəzifənin öhdəsindən hər kəs layiqincə gəlməyi bacarmalıdır. Əsgər övladımla fəxr edirəm. Əsgər atası adını daşıdığım üçün qürur duyuram. Övladıma hər zaman bir nəsihətim olub - Vətəni qorumaq ən şərəfli vəzifədir, bu vəzifəni ləyaqətlə yerinə yetir".

Daha sonra Sevda ananın da fikrini öyrəndik. "Oğul böyütmək Vətənə əsgər böyütməkdir. Bu iş hər bir valideyn üçün həssas, amma qürur duyulasıdır. Məmləkətimiz hər zaman öz igid oğulları ilə tanınıb və öz sələflərinin qəhrəmanlıq və vətənpərvərlik yolunu bu gün mətin addımlarla irəliləyənlər sırasında mənim oğlum da var. Çünki bu gün oğlum Zamiq Vətəni göz bəbəyi kimi qorumağın, onun bütövlüyü üçün canını və qanını əsirgəməyəcəyinin andını içdi. Bu gün sevinirəm ki, Vətən müdafiəçiləri sırasında mənim övladım da var və Zamiqimin timsalında bütün əsgərlərimizi özümə övlad bilirəm, çünki mən əsgər anasıyam".

### "Səni Vətən üçün böyütmüşəm, çalış ona layiq ol"

"Uzun illərdir həsrətində olduğum günü bu gün yaşayıram - övladım qalib ordunun formasında Hərbi Andı qəbul edir", - Tovuzun Dondar Quşçu kəndindən əsgər övladı Öməri ziyarətə gələn Sevda Abdıyeva bizimlə söhbətə başladı. "Bu gün gördüklərim mənim üçün ən gözəl və unudulmaz xatirələrdəndir. Oğlum Ömər bu gün Vətənə, xalqa layiqli bir əsgər kimi xidmət edəcəyinə söz verdi. Hisslərimi sözlə ifadə etmək mənim üçün çox çətindir, təkcə onu deyə bilərəm ki, bu gün mən bütün əsgərləri öz övladımdan ayırmıram, onları da öz doğmam bilirəm, hər birinə bu müqəddəs yolda müvəffəqiyyət arzulayıram. Əsgər oğlum Ömər də daxil olmaqla, bütün əsgər balaların üzərinə bu gündən müqəddəs vəzifə düşür - Vətəni layiqincə qorumaq üçün əlindən gələni əsirgəməmək. Bir valideyn olaraq Azərbaycan əsgərinə bu müqəddəs yolda uğurlar arzu edirəm".

Əsgər atası Elçin Abdıyev oğlu Ömərin böyüyüb boya-başa çatdığı kəndin uzun illər düşmənlə təmas xəttində yerləşməsindən danışdı və onun əsgər olacağı günü çoxdan arzuladığını qeyd etdi. "Oğlum Ömər uşaq yaşlarından güllə səsləri, mərmi sədaları altında böyüyüb. Düşmən uzun illər təmas xəttində təxribatlar törədərək, bizim inancımızı sarsıtmağa çalışdı, lakin onlar dərk etmirdilər ki, qəhrəman Azərbaycan əsgərinin "Dəmir yumruğu" bir gün işə düşəcək və bu yumruq separatçı qüvvələrin başını əzəcək. Uşaq yaşlarından oğlum Ömərə bir fikri aşılamışam - Vətəni yaşatmaq üçün də hər zaman əlindən gələni etməyə borclusan. Ömərə hələ körpə çağından aşıladığım bir fikir var idi - səni Vətən üçün böyütmüşəm, çalış ona layiq ol - bu fikri bir az əvvəl yenə də təkrarladım. Vətəni sevmək, valideyni sevmək, onları qorumaq gərək. Fəxr edirəm ki, bu gün övladım Vətən müdafiəçisi olaraq, ömrünün ən müqəddəs və ümdə vəzifəsini icra edir. Ömərimə və bütün əsgər balalarımıza bu müqəddəs işdə sarsılmaz iradə, güclü bilik, bacarıq və möhkəm güc arzu edirəm. Allah Azərbaycan əsgərini qorusun!" - deyən əsgər atası Elçin Abdıyevlə sağollaşdıq.

### Övladımın timsalında bütün əsgər balalarımla fəxr edirəm!

Növbəti müsahibimiz işğaldan azad olunan Zəngilanın Ördəkli kəndindən olan Ağayevlər ailəsidir. Əvvəlcə əsgər Amil Ağayevin atası Qurban kişinin fikirlərini qələmə alırıq. "Oğlumu bu gün qalib Azərbaycan əsgəri olaraq gördüyüm üçün qürurluyam. Burada iştirak edən valideynlərin keçirdiyi hisslər, demək olar ki, eynidir. Çünki övladını Azərbaycan əsgəri olaraq görmək, hər bir valideyn üçün qürurvericidir. Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edib. Bunu qəhrəman oğullarımıza borcluyuq".



Əsgər Amil Ağayevin anası Minarə xanım həyatının ən xoşbəxt günlərindən birini yaşadığını qeyd edərək söhbətə başladı. "Bu gün övladımı ilk dəfə hərbi formada gördüm. Sevinirəm ki, bu gün yüzlərlə ana ilə yanaşı, mənə də əsgər anası adını daşımaq qismət oldu. Bu gün Azərbaycan əsgəri cəsur, vətənpərvər, qədirbilən övlad olaraq xalqının firavanlığını təmin edir. Bir ananın övladı olaraq, minlərlə, hətta milyonlarla anaya övlad, bacıya qardaş, ataya dayaq olurlar. Budur mərdlik, budur fədakarlıq - budur Azərbaycan əsgəri. Övladımın timsalında bütün əsgər balalarımla fəxr edirəm! İlahi onların yarı və yardımçısı olsun. Qədəmləri sayalı olsun", - deyən əsgər anası fikrini tamamladı.

### Ətrafda misli görülməmiş sevinc, qürur və sevgi vəhdəti yaşanır

Müsahibim olan əsgər valideynləri ilə söhbətdən könül xoşluğu yaşayıram. Gözəl ailələrlə həmsöhbət olmaq, valideynlərin dəyərli fikirlərini qələmə almaq mənim üçün könül xoşluğu olur. Ötən vaxt mərasim iştirakçılarının həyatındakı ən dəyərli vaxtlardan biri idi. Heç kəs bu anın bitməsini istəmirdi, elə mən də. Çünki ətrafdakı möhtəşəm sevinc, qürur və sevginin vəhdətindən yaranan müqayisəolunmaz bir xoşbəxtlik tablosu var idi. Ordu həyatına ilk qədəmlərini qoyan gənc əsgərlərimizin xalqa, Vətənə sədaqətlə, ləyaqətlə xidmət edəcəklərinə, valideynlərinə hər zaman başucalığı gətirəcəklərinə inamımız çox yüksəkdir. Çünki övlad ailənin güzgüsüdür. Və burada həmsöhbət olduğumuz müsahiblərin fikirlərindən gəldiyim qənaət budur ki, Vətənimiz etibarlı əllərdədir, çünki onu vətənpərvər valideynlərin övladları olan gənc nəsil müdafiə edir. Biz də öz növbəmizdə burada Hərbi Andı qəbul etmiş gənc əsgərlərimizə və onlarla birlikdə bu şərəfli yolda addımlayan Vətən müdafiəçilərimizə mübariz, mərd və iradəli olmağı arzu edirik!

Bakı şəhərindən olan əsgər İlkin Elşad oğlu Sadıqovun səsləndirdiyi misra ilə bu məqaləni bitirmək istərdim:

Adım şərəfdi, yolum haqq yolu,
Silahım vicdanım, ürəyim dolu.
Bir ömür boyu
sönməz bir çıraq kimi
And içirəm -
Vətən üçün yaşayıram,
Vətən üçün ölürəm!

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Polkovnik-leytenant Quliyev Rəşad Mürşüd oğluna verilmiş MN № 0058759 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hacızadə Əli İlham oğluna verilmiş MV № 123126 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tağıyev Məhəmməd İbrahimxəlil oğluna verilmiş MV № 150065 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ramazanov Ramal Məmməd oğluna verilmiş MV № 157881 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şükürzadə Camal Rüfət oğluna verilmiş MV № 114530 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 225
Nüsxə 3630